# Metaforların praqmatikası

**Məhbubə Tofiq qızı Umudova**
*Azərbaycan Turizm və Menecment Universitetinin müəllimi*
**E-mail:** mahbuba@yahoo.com

**Rəyçilər:** filol.ü.e.d., prof. Ç.M. Qaraşarlı,
filol.ü.f.d., dos. S.B. Mustafayeva

**Açar sözlər:** praqmatika, metafor, sistem, mətn, məna, xüsusiyyət
**Ключевые слова:** прагматика, метафора, система, текст, значение, характеристика
**Key words:** pragmatics, metaphor, system, text, menaing, feature

"Praqmatika" termini yunan məşəlidir, lüğəvi mənası "iş, hərəkət, təsir" anlamını verir. Praqmatika "hər hansı bir işarə sistemini mənimsəyən və onu tədqiq edən subyektlə həmin sistem arasındakı əlaqəni öyrənir". Hər hansı bir mətnin praqmatik aspektdə öyrənilməsi zamanı mətni formalaşdıran bütün elementlərin, mətn daxilindəki dil vasitələri, danışıq formaları və s. dinləyənə, yaxud oxuyana təsiri anlaşılır. Məlumatın ötürülməsi zamanı danışığın təsiri və kommunikasiyanın məqsədi birləşir və bunların birləşməsi nəticəsində danışıq öz kommunikativ funksiyasını reallaşdırır. İstənilən mətndə informasiyanın ötürülməsi vacib amil hesab olunur. Məlumatın ötürülməsində həm yazılı, həm də şifahi dil vahidlərinin rolu vacibdir. Xüsusilə də hər bir şifahi diskursda məlumatın ötürülməsi əsas funksiya daşıyır. Mətnlərdə məlumatın ötürülməsinin öyrənilməsi Praqa Dilçilik məktəbinin alimləri tərəfindən irəli sürülmüşdür (1, s. 56). Daha sonra 1967-ci ildə mətndaxilində məlumatın ötürülməsi məsələsinə M.A.K.Həlideyin məqalələrində toxunulmuşdur. M.A.K. Həlidey diskurs daxilində məlumatın ötürülməsinin və ümumilikdə məlumatın quruluşunun öyrənilməsində, onun ötürülməsi yollarının araşdırılmasında maraqlı idi (2, s. 34).

Yazıda və danışıqda işlədilən cümlələrin implisit və eksplisit praqmatikasının üzə çıxarılmasında rol oynayan üslubi fiqurlardan olan metafor yunan mənşəlidir "köçürmək" mənasını ifadə edir, məcazi mənada işlənən söz və yaxud ifadəni əks etdirir. Yazıda və ya şifahi nitqdə metaforların işlədilməsi fikirlərin, düşüncələrin fərqli şəkildə reallaşması ilə müşahidə olunur. Məcazi mənanın gücü ilə fikirlər oxucuya, yaxud dinləyənə dolayısı ilə ötürülür və asanlıqla mənimsənilir. Cümlədə işlədilən metaforlar mənanı genişləndirir və düşüncənin yeni yollarını yaradır.

Fərqli mətnlərdə işlədilən metaforlar çox zaman açar rolunu oynayır. Cümlənin mənasının fərqləndirilməsində metaforların işlədilməsinin rolu mənanın açılmasına səbəb ola bilər. C.Syörl yazır: Səm deyir: /Sally is a block of ice// "Səlli olduqca soyuqdur, yəni soyuq qəlblidir". Danışıqda danışanın məqsədi Səllinin "soyuq adam" olmasını nəzərə çatdırmaqdır. Metaforun işlədilməsi cümlə mənasını aydınlaşdırdığı halda, metaforun mənasının açıqlanması ilə danışanın məqsədinin mənası anlaşılır. Danışıqda metaforların işlədilməsinə diqqəti cəlb etməklə C. Syörl sübut etməyə çalışır ki, danışıq nəinki standart qaydaların işlədilməsilə, həmçinin dilin fərqli növlərinin işlədilməsi ilə də müşahidə oluna bilər. Bununla da C. Syörl dilin hərtərəfli nəzəriyyəsinin inkişafına diqqəti cəlb etməyə çalışır (3, s. 90).

Ünsiyyət zamanı işlədilən cümlələrin mənasının aydınlaşdırılmasında C. Syörl ədəbi məna ilə məcazi mənanın fərqləndirilməsini təklif edir. Bu mənaların fərqləndirilməsində kontekstə diqqət verməк lazımdır. Hər iki mənanın düzgün anlaşılması üçün kontekstin rolu mühümdür.

Ümumilikdə hər hansı bir mənanın fərqlədirilməsində kontekstin rolu M.A.K. Həlidey tərəfindən də irəli sürülmüşdür. M.A.K. Həlidey kontekst və mətn anlayışlarını qarşılaşdıraraq, kontekstin daha geniş anlayış olduğunu yazır və iddia edir ki, hər hansı bir mənanın açılmasında ilk əvvəl kontekstə diqqət vermək lazımdır (4, s. 67). C. Syörl də iddia edir ki, kontekstlə yanaşı ünsiyyət iştirakçılarının fon bilikləri də nəzərə alınmalıdır. O, nümunə verir: / The cat is on the mat// "Pişik xalçanın üstündədir". Əgər bu cümlə pişiyin xalçanın üstündə uzandığı mənasında deyilərsə, o halda kontekstə aid olmayan deyiliş müşahidə edəcəyik. Amma bu cümlə kontekstdən asılı olaraq da izah edilə bilər. Belə ki, söhbət konkret pişikdən və konkret xalçanın üstündə olan pişikdən gedirsə, kontekstual mənanın icrası müşahidə olunur (4, s. 78). C. Syörl yazır: "Bir mənalı olan danışıq zamanı / The cat is on the mat// cümləsinin ədəbi mənası yalnız fon biliklərinə aid olan tətbiqi əlaqə ilə ifadə oluna bilər. Cümlənin real situasiya ilə şərtləndirilməsi, həmin cümlənin fon gümanlarındakı fərqli variantlarla ifadə oluna bilir. Əgər cümlədə fon biliyi yoxdursa, o halda real şərtlərdən danışmaq mümkün deyildir. Bu variantların indekstlə, məna dəyişikliyilə, ambiqyutivliklə, konvensional implikaturla, presuppozisiya ilə heç bir əlaqəsi müşahidə oluna bilməz" (5, s. 65).

C. Syörl danışıqda, fərq yoxdur, bədii ədəbiyyatda, yaxud gündəlik danışıqda metaforların işlədilmənin heç bir ikimənalılıq yaratmadığını iddia edir. O, belə kontekst qurur: Səmin süfrə arxasında necə yemək yediyini müşahidə edən qonaqlardan biri deyir: / Sam is a pig// "Səm donuzdur". O, ikimənalı heç bir şey ifadə etmədi. /Pig/ "donuz" əsl "donuz" sözü mənasında, /Sam/ "Səm" insan adı mənasında işlədildi, /is/ ingilis dilində köməkçi feil, /a/ isə qeyri-müəyyənlik artiklidir və bunların da mənasında heç bir ikimənalılıq yoxdur. Odur ki, bütövlükdə *Sam is a pig* cümləsi qrammatik cəhətdən düzgündür və mənasında heç bir ikimənalılıq müşahidə olunmur. Cümlə ifadə etdiyi mənada deyilmişdir. Amma cümləni dinləyənlər üçün bu qəbul edilmir. Deyilənlə danışanın demək istədiyi məna arasında fərqlilik müşahidə olunur. Təbii ki, Səm donuz deyil və donuza da bənzəmir. Danışanın bu cümləni işlətməsinin semantikası belə izah olunur ki, Səm olduqca çox yeyir və həmçinin o, yeməyi acgözlüklə, sanki vəhşi kimi yeyir və bu da danışana əsas verir ki, onun haqqında belə bir məcaz işlətsin. Danışıq zamanı cümlənin mənası bu yolla fərqləndirilir.

Metaforların praqmatikasının öyrənilməsi qədim zamanlardan mövcud olmuşdur. Qədim Yunanıstanda Aristotelin "Ritorika" əsərində dilin ictimai proseslərdə rolu və əhəmiyyəti olduqca aktual idi (5, s. 5). Mətnlərin müxtəlif növlərinin dinləyənə, yaxud oxuyana çatdırılmasında ritorikanın əhəmiyyəti danılmaz idi. Hər hansı bir mətni göndərən şəxs və mətni qəbul edən şəxs qarşılıqlı olaraq bir-birinin ideoloji və mədəni səviyyəsi haqqında düşünür. Mətnlərdə onu göndərənlə qəbul edən arasında koqnitiv sistem eyni cür qurulmalıdır, mətni qəbul edənlər eyni bilik konstruksiyalarına yiyələnməsələr, onda qarşılıqlı anlama baş verməyəcəkdir.

Məlumatı qəbul edənlər çox zaman onu öz məqsəd və maraqlarına uyğun olaraq anlayırlar. C. Lakoff məlumatı qəbul edənin koqnitiv biliklər sistemini belə izah edir: "Koqnitiv biliklər sistemi özünün fiziki, sosial və digər təcrübə növlərinə əsaslanır və onlar vasitəsilə başa düşülür, qəbul edilir (6, s. 54). A. Çenki yazır ki, koqnitiv biliklər koqnitiv dilçilik qarşısında dil strukturları ilə bilik strukturları arasında müşahidə olunan əlaqənin izahı kimi çox mürəkkəb məsələnin həlli durur (6, s. 7). Bu əlaqələrin həlli üçün ritorik vasitələrin rolunu müşahidə olunur. Ritorik fiqurlardan hesab edilən metaforlar koqnitiv biliyin çatdırılmasında, yaxud açılmasında aşağıdakı rolları yerinə yetirir: məqsədə bağlılıq, işlənmə tezliyindən asılı olmaq və s.

Ümumiyyətlə, metaforlar fərdin psixoloji, mədəni, ideoloji səviyyələri ilə bağlı olur və bü-

tün mətn və diskurs növlərində müşahidə olunur. Ritorik fiqur hesab edilən metaforların əsas üstünlüyü ondadır ki, onlar məlumatı qəbul edənlərdə fərqli implikasiyalar yaradır. Bu cür implikasiyalar mətni qəbul edənlərin fon biliyinə və kultural freymlərinə uyğun olaraq inferensiya və şərf oluna bilər. Mətnlərində metafor işlədənlər məlumatı qəbul edənin mədəni dəyərlərini və üstünlüklərini nəzərə alır və onun dünya görüşlərinin formalaşmasında mühüm rol oynayır.

Metaforun icrası və qurulması təbii ki, sözlə bağlıdır. Dildə işlənən sözlər insanların ünsiyyətinə xidmət edir. Sözün insanların ünsiyyətinə xidmət etməsi üçün onların fərqli cümlə tərkibində işlənməsini müşahidə etmək lazımdır. Ünsiyyət zamanı söz öz denotatına təsir edir və bu təsirin əsasında həmin sözlə ifadə olunan metafor dayanır. Demək olar ki, kontekstdən asılı olaraq bütün sözlərin metaforik dəyəri olduğunu müşahidə etmək olar. Elə bu səbəbdən də C. Lakoff iddia edir ki, metaforlar yalnız bədii üsluba aid edilə bilməz. Onun iddiasına əsasən, bütün üslublarda metaforların işlədilməsi mümkündür. C. Lakoff yazır ki, insanlar real həyatda da metafor istifadə edə bilərlər (3, s. 56). Biz bu məsələdə C. Lakofla razılaşırıq. Belə ki, əgər metafor insanların müxtəlif psixoloji, ideoloji, mədəni vəziyyətlərilə bağlıdırsa, o halda gündəlik həyatda onlardan istifadə etmək mümkündür. Hazırkı zəmanəmiz o haldadır ki, elə metaforların istifadəsi indi gərəkli hesab edilə bilər. Məsələn, belə bir nümunə işlədək:

*The God damn life is cutting my body every day.* "Lənətə gəlmiş həyat məni hər gün bıçaq kimi kəsir". Günümüzdə bu kimi metaforik cümlələrin işlədilməsi heç də yad səslənməz. Vacib deyil ki, onu yalnız bəddi ədəbiyyatda oxuyaq. Xüsusilə bu məsələdə konseptual metaforların işlədilməsinin üstünlüyünü vurğulamaq yerinə düşər. Digər nümunə: *Life is pain* "Həyat ağrıdır, dərd-qəmdir" konseptual metaforunun mövcudluğu belə metaforik ifadə ilə müşahidə oluna bilər (39, s. 56). *His life is full of pain.* "Həyat ağrı, əzab-əziyyətlə doludur". Həyatın çətin, keşməkeşli yolları olduğunu müəyyənləşdirən bu cür metaforlar üçün müəyyən prinsip təklif olunur. Bu onu göstərir ki, həyat asan deyil, çətinliklərlə doludur. Bu çətinlik hər bir adamın həyatında mümkündür. Qeyd edək ki, bu cür metaforlarda mənbə və hədəf parametrlərini fərqləndirmək lazımdır. Bu cümlədə mənbə həyatdır, hədəf isə ağrı, əzab əziyyətdir. Mənbə ilə hədəfin üst-üstə düşməsində paradoks müşahidə oluna bilər. Məsələn, *Time is hard* "Zaman çətindir" metaforunda hədəf və mənbə üst-üstə düşmür, çünki burada vaxt maddi varlıq kimi deyil, onun icraçı kimi qəbul olunur.

Vurğulamaq lazımdır ki, metaforlar müxtəlif konkretlilik səviyyəsində funksiya daşıyır. Elə qrup metaforlar var ki, onlar ümumi səviyyədə müşahidə olunur, elələri də var ki, konkret səviyyədə. Səbəb-nəticə, zaman, sevgi kimi metaforlar ümumi səviyyəyə aid, qəm-qüssə kimi emosional hisslərlə bağlı olanlar isə konkretlilik səviyyəsinə aid və konkret fiziki təcrübəyə aid semantik əlamətləri əks etdirir. Məsələn, *Life is hard* "Həyat ağırdır, keşməkeşlidir", metaforu konkretdir və buradan daha ümumi səviyyə keçid ala bilir. Qeyd edək ki, konkret səviyyədən ümumi səviyyəyə yola alınan münasibətlərdə iyerarxik əlaqə nəzərə çarpır. Belə ki, konkret səviyyədə müşahidə olunan metaforlar daha yüksək səviyyə aid olan metaforların xüsusiyyətlərini mənimsəyir və beləliklə də onların işlənə biləcəyi kontekst yaranır. Məsələn,

*Time is a circus, always packing up and moving away.* "Zaman sirkə bənzəyir, həmişə hərəkətdədir və dövr edir".

Bu konseptual metafordur, yenə də kontekstə uyğun olaraq mənfi vəziyyəti ifadə edərək konkret səviyyəyə aid hesab edilir. Bu metafor bizə həyatın bir sahəsi haqqında məlumat verir və sanki insanları düşünməyə vadar edir. Verdiyimiz nümunədə olduğu kimi, metaforun işlədilməsilə idraki qabiliyyət meydana çıxır. A. Çenki yazır ki, konseptual metafor bəzi hallarda koqnitiv metafor kimi də istifadə oluna bilər (2, s. 8). Bu zaman metafor vasitəsilə dil və koq-

nitiv proseslər qarşılaşdırılır və dil fəaliyyətinin bütün sahələrində, o cümlədən gündəlik həyatda da müşahidə oluna bilir. Koqnitiv metafora aid bir nümunə verək:

*Love is war* "Sevgi müharibədir". Bu metafor koqnitiv metafor hesab edilir. Belə ki, metaforik konsept təsir vasitəsi deyil, obraz və hərəkət elementlərinə malikdir. Konsept-obraz və hərəkət kimi elementlərin kontekstdə birlikdə işlədilməsi metaforun təsir gücünü artırır. Metaforun gücü ilə məlumatı qəbul edənin təfəkkürü hərəkətə gəlir və bununla da onların fon bilikləri obrazlaşır və koqnitiv struktura çevrilir və dildə modelləşir (3, s. 56). Bəzi mətnlərdə elə metaforik konseptlər olur ki, onları insan təfəkkürünün anlaması çətinlik törədir. C. Lakof yazır ki, metaforlar yalnız dil vasitələrilə deyil, digər vasitələrə. jestlər və mədəniyyətlərlə bağlı adət-ənənələrlə də ifadə oluna bilər (3, s. 7).

Metaforların təşbehdən (ingilis dilində *simile*) fərqləndirilməsi də vacibdir. Metafor lazım olan terminlə əlaqəsi olmayana bir anlamı, məfhumu, məcaz dili ilə ifadə etdiyi halda, təşbehdə bu predmet müəyyən əlamətlərə görə özündən daha qüvvətli başqa predmetə oxşayır, yaxud bənzədilir. Nümunələri müqayisə edək: *My friend is a lion* "Dostum şirdir" bu cümlə leksik metaforla təqdim edilmişdir. Lakin: *My friend is like a lion* "Mənim dostum şirə bənzəyir". Bu cümlə isə təşbeh (ingilis dilində *simile*) kimi işlədilmişdir.

Vurğulamaq lazımdır ki, hazırda metaforlarla aparılan tədqiqatlar konseptual və yaxud koqnitiv metafora nəzəriyyəsinə istiqamətlənmişdir. M. Tendal bu məqsədlə Metaforun Hibrid Nəzəriyyəsi adlanan konsepsiya irəli sürərək, Müvafiq Nəzəriyyəsinin metafora koqnitiv yanaşma ilə uzlaşdırılmalı olduğunu bildirir.

**Məqalənin aktuallığı.** Müasir ingilis dilində işlənən metaforların işlənmə dərəcəsi və yeri xüsusi önəm daşıyır və bu da onların aktuallığını şərtləndirir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik metaforların semantik xüsusiyyətlərinin müəyyənləşməsi və araşdırılmasından ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə fərqləndirilən vasitələr tələbələr, müəllimlər, tədqiqatçılar və digərləri tərəfindən düzgün istifadəsinə yardımçı olmaqdan ibarətdir.

## Ədəbiyyat


1. Veysəlli F.Y. Dilçilik Ensiklopediyası. Bakı: Mütərcim, 2006.
2. William Sh. Macbeth. Published in London, created 1623.
3. Campbell J., Bill M. The Power of Myth. *UK:* Knopf Doubleday Publishing Group, 2011.
4. Aristotle. Rhetoric. Cosimo, Inc., Jan 1, 2010.
5. Halliday M.A.K. An Introduction to functional Grammar. Edward Arnold. (Publishers) Ltd, 1985.
6. Kahan J. "Historicism". Renaissance Quarterly, vol. 50, No. 4, 1997.
7. Brian L., Michael R. (eds.). The Oxford Handbook of Continental Philosophy. Oxford: Oxford University Press, 2007.

**М.Т. Умудова**

## Прагматика метафоры

### Резюме

В статье рассматривается прагматика метафор. Во-первых, он разъясняет значение понятия «прагматика». В нем говорится, что прагматика изучает отношения между субъектом, который овладевает и изучает любую систему знаков в языке. При изучении любого текста в прагматическом аспекте понимается, что все элементы, составляющие текст, языковые средства в тексте, формы речи и т. д. влияют на слушателя или читателя.

**M.T. Umudova**

## The pragmatics of the metaphors

### Summary

The article deals with the pragmatics of the metaphors. It firstly clarifies the meaning of the notion of ‘pragmatics’. It states that pragmatics studies the relationship between the subject who masters and studies any sign system in the language. When studying any text in a pragmatic aspect, it is understood that all the elements that make up the text, the means of language within the text, the forms of speech, etc., affect the listener or the reader.

**Redaksiyaya daxil olub:** 23.04.2021